ədalət.-2020.- 31 oktyabr.- S.14

***Füzuli QOBUSTANLI***

# *AZƏRBAYCAN ORDUSU*

**Qafqazda ən güclüsən
Azərbaycan Ordusu.
Öncülsən, birincisən,
Azərbaycan Ordusu.**

**İlk gündən döyüşmüsən
Döyüşlərdə bişmisən.
Hərbdə də yetişmisən
Azərbaycan Ordusu.**

**Çox igid şəhid oldu
Hər uğur ümid oldu.
Cəbhədə vahid oldu
Azərbaycan Ordusu.**

**Dağ səngər, dərə səngər
Sərkərdə - Ali rəhbər.
Bütöv bir millət əsgər -
Azərbaycan Ordusu.**

**Düşmənin zavalısan
Azadlıq qartalısan.
Qov yurddan məlalı sən
Azərbaycan Ordusu.**

**Qorxuya düşüb yağı
Əsir əli, ayağı.
Al, qaytar Qarabağı
Azərbaycan Ordusu!**

**Nəsil-nəsil yaşayar
Bəxş etdiyin iftixar.
Azərbaycan varsa, var
Azərbaycan Ordusu!**